Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:

_______________dos. Zaur Məmmədov
"05" "01" 2026-cı il

Fənn sillabusu
(işçi tədris proqramı)

**İxtisasın şifri və adı:** 7004006 - "Maliyyə"
**İxtisaslaşmanın adı:** Maliyyə menecmenti
Fakültə: İqtisadiyyat və idarəetmə
Kafedra: Maliyyə idarəetməsi və audit

**I. Fənn haqqında məlumat:**
Fənnin adı: S/F (Böhranlı müəssisələrin maliyyə sabitləşməsi problemləri) (Fənn proqram LDU-nun 18.04. 2024-cü il tarixli 4/41 nömrəli əmri ilə təsdiq edilmişdir).
Kodu: ATMMSF-001
Tədris ili: I (2025/2026).
Semestr: II (Yaz)
Tədris yükü: Cəmi: 180saat. Auditoriya saatı 30 saat: (Mühazirə - 15 saat, seminar – 15 saat)
Tədris dili: Azərbaycan dili
Təhsilalma forması: Əyani
AKTS üzrə kredit: 6

**II. Müəllim haqqında məlumat:**
Adı, soyadı, elmi dərəcəsi və elmi adı: Quliyev Ülvi Fərman oğlu, i.ü.f.d., dos.
Məsləhət günləri: IV gün saat $16^{00}$-$17^{00}$
E-mail ünvanı: guliyev.ulvi@gmail.com
Kafedranın ünvanı: Lənkəran ş., Füzuli küç.,170-a

**III.Tövsiyyə olunan dərslik, dərs və saitivə metodik vəsaitlər:**
**Əsas:**

1. V.Z.Zeynalov. Maliyyə böhranı və antiböhran idarəetmə siyasəti. Bakı, Azərnəşr. 2012.
2. V.Z.Zeynalov. Maliyyə Böhranı: Tarix, nəzəriyyə və antiböhran siyasət. Bakı, Azərnəşr. 2012.
3. Şahverdiyev R. Maliyyə analizi və böhranlardan yanaşmalar. Bakı: Elm və Təhsil Nəşriyyatı, 2012
4. Kəndirli, M. Maliyyə idarəetməsi və böhranlı müəssisələrin reabilitasiyası. Bakı: Azərnəşr, 2015
5. Şıxəliyev F. İqtisadiyyat və maliyyə böhranlarının idarə olunması. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti, 2018
6. Teymurov M. Maliyyə sabitləşməsi və böhranlı müəssisələrin reabilitasiyası. Bakı: Milli Təhsil Nəşriyyatı, 2011


**Əlavə:**

7. Черненко В. А., Шведова Н. Ю. Антикризисное управление: учеб. и практикум для вузов. М.: Юрайт, 2022
8. Горлов В. В., КузьминаЕ. Ю., Соклакова И. В., Сурат В. И. Управление потенциалом предприятия в условиях кризиса: монография. Москва: Дашков и К°, 2022
9. Горлов В. В., КузьминаЕ. Ю., Соклакова И. В., Сурат В. И. Управление во время кризиса: научно- популярное издание. Москва: Альпина. Паблишер, 2022
10. Аунапу, Э. Ф. Антикризисное управление: учебник / Э. Ф. Аунапу. — 2-е изд. — Саратов: Ай Пи Эр Медиа, 2022. — 313 с.


**IV. Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən "Maliyyənin masir problemləri" fənninin tədrisi vacibdir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxta başqa fənlərin tədris olunmasına zərurət yoxdur.

CamScanner ile tarandı

**VI. Fənnin təsviri və məqsədi:** "Böhranlı müəssisələrin maliyyə sabitləşməsi problemləri" fənni böhran vəziyyətində olan və maliyyə çətinlikləri ilə üzləşən müəssisələrin sabitliyini təmin etmək məqsədilə həyata keçirilən maliyyə bərpa proseslərini öyrənir. Magistrantlar müəssisənin maliyyə vəziyyətini qiymətləndirməyi, problemləri düzgün təhlil etməyi öyrənirlər. Fənn müəssisələrin maliyyə çətinliklərinin köklü səbəblərini başa düşməyə, iqtisadi, əməliyyat və struktur problemlərini müəyyənləşdirməyə və bu səbəblərin maliyyə vəziyyətinə təsirini öyrənməyə kömək edir. Fənn müəssisələrin maliyyə böhranı ilə qarşılaşdıqda hansı göstəricilərin və vəziyyətlərin yaranmasını öyrədir. Magistrantlar müəssisənin maliyyə vəziyyətini qiymətləndirməyi, problemləri düzgün təhlil etməyi öyrənirlər. Fənn magistrantlara böhrandan çıxış yolları planlaşdırmağı və tətbiq etməyi öyrədir. Bu planlar müəssisənin fəaliyyətini sabitləşdirmək və uzunmüddətli inkişafını təmin etmək məqsədi daşıyır. Bu fənn həmçinin müəssisələrin inkişafında qarşılaşdıqları maliyyə problemlərinə dair geniş bir nəzəriyyə və praktik perspektiv təqdim edir, magistrantlara kompleks maliyyə vəziyyətlərini həll etmə bacarıqları qazandırır. Fənn müəssisələrin maliyyə böhranı ilə qarşılaşdıqda hansı göstəricilərin və vəziyyətlərin yaranmasını öyrədir. Beləliklə "Böhranlı müəssisələrin maliyyə sabitləşməsi problemləri" fənni magistrantlara maliyyə idarəetməsi sahəsindəki biliklərini gücləndirir, xüsusilə böhranlı vəziyyətlərdə müəssisələrin maliyyə sabitliyini təmin etmək üçün nəzəri və praktiki bacarıqlar qazandırır.

Fənnin əsas məqsədi magistrantlara, iqtisadiyyat və maliyyə sahəsindəki böhranları dərk etməyi, müəssisələrin maliyyə vəziyyətini təhlil etməyi, maliyyə bərpa strategiyalarını planlaşdırmağı və tətbiq etməyi öyrətməkdir. Fənnin məqsədinə daxildir:

- Böhran vəziyyətini başa düşmək: Müəssisələrin üzləşdiyi maliyyə böhranlarının səbəblərini və onların idarə olunmasının vacibliyini anlamaq;
- Magitrantlara real həyat nümunələri üzərində çalışaraq müasir maliyyə sabitləşdirmə yanaşmalarını mənimsəmək və s.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə magistrlərin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir. Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - magistr keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - magistr keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - magistr cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - magistr keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal – magistrin cavabı əsasən düzgündür;
- 5 bal - magistrin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - magistrin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - magistrin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - magistrin mövzudan qismən xəbəri var;

CamScanner ile tarandı

– 0 bal - cavab yoxdur.

Magistrin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə magistrin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur. Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**

Magistr Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X. Təqvim mövzu planı:**

Cəmi: 30 saat: Mühazirə - 15 saat, seminar – 15 saat.

| № | Tədris olunan mövzuların məzmunu | Saat | | Tarix |
|---|---|---|---|---|
| | | Mühazirə | Seminar | |
| 1. | **Mövzu:** Müasir iqtisadi sistemlərdə böhran, onun yaranma səbəbləri və tipləri<br>Pian.<br>1. Müasir iqtisadi inkişafda böhran anlayışı və onun yaranma səbəbləri<br>2. Böhranın tipləri<br>3. Böhranın əlamətləri, hiss edilməsi və həll edilməsi<br>4. Böhran vəziyyətlərində insan amili<br>5. Müəssisələrin antiböhranlı idarəetmənin məzmunu və məqsədləri<br>6. Antiböhranlı idarəetmə sistemində müəssisənin ümumi parametrlərinin diaqnostikası<br>Mənbə: [Mühazirə materialları,1-10] | 2 | 2 | |
| 2. | **Mövzu:** Müəssisələrin (şirkətin, firmanın, təşkilatın) idarə edilməsində böhranlar<br>Plan:<br>1. Təşkilatın ümumi və spesfik, xarici və daxili inkişaf amilləri<br>2. Müəssisədə (təşkilatda) böhranların yaranması<br>3. Müəssisənin (təşkilatın) tsiklik (dövrü) inkişaf meyilləri<br>4. Təşkilatın inkişafında tsiklik tendesiyalarda (meyllərdə) böhran ehtimalı və qorxusu<br>Mənbə: [Mühazirə materialları,1-10] | 2 | 2 | |
| 3. | **Mövzu:** Müəssisələrin antböhranlı idarəetmənin əsas xüsusiyyətləri<br>1. Müəssisələrin antiböhranlı inkişafda idarəedilən və idarə edilməbilməyən proseslər<br>2. Müəssisələrin antiböhranlı idarəetmədə imkanları və problemləri<br>3. Müəssisələrin antiböhranlı idarəetmənin əlamətləri və xüsusiyyətləri<br>4. Müəssisələrin antiböhranlı idarəetmənin səmərəliliyi<br>Mənbə: [Mühazirə materialları,1-10] | 2 | 2 | |

CamScanner ile tarandı

| | | | | |
|---|---|---|---|---|
| 4. | **Mövzu:** Müəssisələrin maliyyə sabitləşməsi istiqamətində müayinəsi<br>Plan:<br>1. Maliyyə sabitləşməsi istiqamətində müayinə və onun əsas parametrləri<br>2. Maliyyə sabitləşməsi istiqamətində böhranın müainəsinin mərhələləri və metodları<br>3. Maliyyə sabitləşməsi istiqamətində böhranın müayinəsində informasiya<br>4. Maliyyə sabitləşməsi istiqamətində müəsisənin müflisləşməsinin müayinəsi<br>Mənbə: [Mühazirə materialları,1-10] | 2 | 2 | |
| 5. | **Mövzu:** Müəssisənin antiböhranlı idarəetmədə strategiya və taktika<br>Plan:<br>1. Antiböhranlı idarəetmədə strategiyanın rolu<br>2. Müəssisənin antiböhranlı strategiyasının işlənməsi<br>3. Seçilmiş antiböhranlı strategiyanın reallaşdırılması<br>4. Antiböhranlı strategiyanın tətbiqinin təşkili<br>Mənbə: [Mühazirə materialları,1-10] | 2 | 2 | |
| 6. | **Mövzu:** Antiböhranlı idarəetmədə müəssisələrin əsaslı təşkilati dəyişikliklər<br>Plan:<br>1. Antiböhranlı idarəetmədə təşkilati dəyişikliklər anlayışı<br>2. Antiböhranlı idarəetmənin xarici mühiti<br>3. Proses antiböhranlı əsaslı dəyişiklikləri<br>4. Məhsul antiböhranlı əsaslı dəyişiklikləri<br>5. Resurs antiböhran əsaslı dəyişiklikləri<br>Mənbə: [Mühazirə materialları,1-10] | 2 | 2 | |
| 7. | **Mövzu:** Antiböhranlı idarəetmədə müəssisələrin investisiya siyasəti<br>Plan:<br>1. Antiböhranlı idarəetmədə müəssisədə investisiya qərarlarının qəbulu<br>2. Məhdud maliyyə resursları şəraitində müəssisədə investisiyaların maliyyələşdirilməsi mənbələri<br>3. Antiböhranlı idarəetmədə müəssisələrin investisiya cəlbediciliyinin qiymətləndirilməsi<br>4. Antiböhranlı idarəetmədə müəssisələrdə investisiya layihələrinin qiymətləndirilməsi metodları<br>Mənbə: [Mühazirə materialları,1-10] | 2 | 2 | |
| 8. | **Mövzu:** Böhranlı müəssisələrin sağlamlaşdırma (sanasiya)<br>Plan:<br>1. Sağlamlaşdırma anlayışı və antıböhranlı idarəetmədə onun rolu<br>2. Müəssisənin investisiya potensialının sağlamalaşdırılması<br>3 Sağlamlaşdırma proqramının işlənməsi<br>4. Kadr potensialının sağlamlaşdırılması<br>Mənbə: [Mühazirə materialları,1-10] | 1 | 1 | |
| | Cəmi | 15 | 15 | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:** Bazar iqtisadiyyatı şəraitində müəssisələrdə maliyyə işinin düzgün yerinə yetirilməsi və maliyyə resurslarının məqsədyönlü istiqamətləndirilməsindən ötrü məsuliyyətli, savadlı kadrların hazırlanmasına böyük ehtiyac vardır. Magistrantlar fənnin

CamScanner ile tarandı

öyrənilməsi nəticəsində böhran vəziyyətində olan və maliyyə çətinlikləri ilə üzləşən müəssisələrin sabitliyini təmin etmək məqsədilə həyata keçirilən maliyyə bərpa proseslərini öyrənməli, müəssisənin maliyyə vəziyyətini qiymətləndirməyi, problemləri düzgün təhlil etməyi bacarmalı, müəssisənin maliyyə vəziyyətini qiymətləndirməyi, problemləri düzgün təhlil etməyi öyrənməli və xüsusilə böhranlı vəziyyətlərdə müəssisələrin maliyyə sabitliyini təmin etmək üçün nəzəri və praktiki bacarıqlar əldə etməlidirlər.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- mühazirə, seminar, praktiki tapşırıqlar;
- təqdimat və müzakirə;
- debat;
- müstəqil iş/araşdırma.

**XIII. Fənn üzrə təlimin nəticələri:**

**Magistrantlar**

- Müasir iqtisadi inkişafda bohranın yaranma səbəbləri, tipləri və əlamətləri haqqında biliklər əldə edir;
- Müəssisədə (təşkilatda) böhranların yaranması, tsiklik (dövrü) inkişaf meyilləri haqqında biliklər əldə edir;
- Maliyyə sabitləşməsi istiqamətində müayinə və onun əsas paramətrləri haqqında biliklər əldə edir;
- Müəssisənin antiböhranlı strategiyasının işlənməsi prosesi haqqında biliklər əldə edir;
- Antiböhranlı idarəetmədə müəssisədə investisiya qərarlarının qəbulu, investisiya cəlbediciliyinin qiymətləndirilməsi haqqında biliklər əldə edir;
- Müəssisənin investisiya potensialının sağlamalşdırılması, sağlamlaşdırma proqramının işlənməsi və s. haqqında biliklər əldə edir;

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**____________________________

**XV. Kollokvium sualları:**

**I Kollokvium sualları:**

1. Müasir iqtisadi inkişafda böhran anlayışı və onun yaranma səbəbləri
2. Böhranın tipləri
3. Böhranın əlamətləri, hiss edilməsi və həll edilməsi
4. Böhran vəziyyətlərində insan amili
5. Müəssisələrin antiböhranlı idarəetmənin məzmunu və məqsədləri
6. Antiböhranlı idarəetmə sistemində müəssisənin ümumi parametrlərinin diaqnostikası
7. Təşkilatın ümumi və spesfik, xarici və daxili inkişaf amilləri
8. Müəssisədə (təşkilatda) böhranların yaranması
9. Müəssisənin (təşkilatın) tsiklik (dövrü) inkişaf meyilləri
10. Təşkilatın inkişafında tsiklik tendesiyalarda (meyllərdə) böhran ehtimalı və qorxusu

**II Kollokvium sualları:**

1. Müəssisələrin antiböhranlı inkişafda idarəedilən və idarəediləbilməyən proseslər
2. Müəssisələrin antiböhranlı idarəetmədə imkanları və problemləri
3. Müəssisələrin antiböhranlı idarəetmənin əlamətləri və xüsusiyyətləri
4. Maliyyə sabitləşməsi istiqamətində müayinə və onun əsas parametrləri
5. Maliyyə sabitləşməsi istiqamətində böhranın müainəsinin mərhələləri və metodları
6. Maliyyə sabitləşməsi istiqamətində müəsisənin müflisləşməsinin müayinəsi
7. Antiböhranlı idarəetmədə strategiyanın rolu
8. Müəssisənin antiböhranlı strategiyasının işlənməsi
9. Antiböhranlı idarəetmədə təşkilati dəyişikliklər anlayışı
10. Resurs antiböhran əsaslı dəyişiklikləri

**XVI. İmtahan sualları:**

1. Müasir iqtisadi inkişafda böhran anlayışı və onun yaranma səbəbləri
2. Böhranın tipləri
3. Böhranın əlamətləri, hiss edilməsi və həll edilməsi

CamScanner ile tarandı

4. Böhran vəziyyətlərində insan amili
5. Müəssisələrin antiböhranlı idarəetmənin məzmunu və məqsədləri
6. Antiböhranlı idarəetmə sistemində müəssisənin ümumi parametrlərinin diaqnostikası
7. Təşkilatın ümumi və spesfik, xarici və daxili inkişaf amilləri
8. Müəssisədə (təşkilatda) böhranların yaranması
9. Müəssisənin (təşkilatın) tsiklik (dövrü) inkişaf meyilləri
10. Təşkilatın inkişafında tsiklik tendesiyalarda (meyllərdə) böhran ehtimalı və qorxusu
11. Müəssisələrin antiböhranlı inkişafda idarəedilən və idarə ediləbilməyən proseslər
12. Müəssisələrin antiböhranlı idarəetmədə imkanları və problemləri
13. Müəssisələrin antiböhranlı idarəetmənin əlamətləri və xüsusiyyətləri
14. Müəssisələrin antiböhranlı idarəetmənin səmərəliliyi
15. Maliyyə sabitləşməsi istiqamətində müayinə və onun əsas parametrləri
16. Maliyyə sabitləşməsi istiqamətində böhranın müayinəsinin mərhələləri və metodları
17. Maliyyə sabitləşməsi istiqamətində böhranın müayinəsində informasiya
18. Maliyyə sabitləşməsi istiqamətində müəssisənin müflisləşməsinin müayinəsi
19. Antiböhranlı idarəetmədə strategiyanın rolu
20. Müəssisənin antiböhranlı strategiyasının işlənməsi
21. Seçilmiş antiböhranlı strategiyanın reallaşdırılması
22. Antiböhranlı strategiyanın tətbiqinin təşkili
23. Antiböhranlı idarəetmədə təşkilati dəyişikliklər anlayışı
24. Antiböhranlı idarəetmənin xarici mühiti
25. Proses antiböhranlı əsaslı dəyişiklikləri
26. Məhsul antiböhranlı əsaslı dəyişiklikləri
27. Resurs antiböhran əsaslı dəyişiklikləri
28. Antiböhranlı idarəetmədə müəssisədə investisiya qərarlarının qəbulu
29. Məhdud maliyyə resursları şəraitində müəssisədə investisiyaların maliyyələşdirilməsi mənbələri
30. Antiböhranlı idarəetmədə müəssisələrin investisiya cəlbediciliyinin qiymətləndirilməsi
31. Antiböhranlı idarəetmədə müəssisələrdə investisiya layihələrinin qiymətləndirilməsi metodları
32. Sağlamlaşdırma anlayışı və antıböhranlı idarəetmədə onun rolu
33. Müəssisənin investisiya potensialının sağlamlaşdırılması
34. Sağlamlaşdırma proqramının işlənməsi
35. Kadr potensialının sağlamlaşdırılması

S/F (Böhranlı müəssisələrin maliyyə sabitləşməsi problemləri) fənninin sillabusu 7004006 - “Maliyyə” ixtisasının təhsil proqramı, tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus “Maliyyə idarəetməsi və audit” kafedrasının “05” “01” 2026-cı il tarixli (08 saylı protokol) iclasında təsdiq olunmuşdur.

Fənn müəllimi: dos. Ülvi Quliyev

Kafedra müdiri: dos. Əlixan Bədəlov

CamScanner ile tarandı